Səh. 2 İftar süfrəsi və əsas mahiyyəti – Hacı Bəkiroğlu
Səh. 3 Siyasətçilərdən çox “ekspert” olan adi insanlar – Çiyalə Osmanova
Səh. 4 İnsanlığın uçurumu – Afaq Azər
Səh. 5 Qalib Həsənovla müsahibə
Səh. 2 Şərqin qədəri – Cəlal Yadigarlı
Səh. 4 ÖZÜMLƏ MÜSAHİBƏ – XƏYAL DƏMİRÇİYEV
Səh. 7 Belə-belə işlər: Qalaktion Tabidze – Mirzə Məmmədoğlu

İCTİMAİ QƏZET ❁ yeniyolqazeti@gmail.com ❁ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❁ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

15 MART
2026-Cİ İL
№ 05 (245)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

## BAŞ NAZİR MÜSƏLMAN İCMASINI İFTAR SÜFRƏSİNƏ QONAQ EDİB



Gürcüstanın Baş naziri İrakli Kobaxidze hökumət üzvləri ilə birlikdə müsəlman din xadimlərini və ölkədə yaşayan müsəlman icmasını iftar süfrəsinə qonaq edib.

Baş nazir müasir və güclü Gürcüstan dövlətinin qurulması prosesində müsəlman icmasının rolundan danışıb və onları qarşıdan gələn Ramazan bayramı münasibətilə təbrik edib.

*“Bizim üçün böyük şərəfdir ki, bu il də sizi iftar süfrəsində qəbul edirik. Bu görüş bir daha təsdiq edir ki, qardaşlığımız, birliyimiz və qarşılıqlı hörmətimiz sarsılmazdır. Gürcüstanda yaşayan hər bir müsəlmanı və bütün müsəlman icmasını müqəddəs Ramazan ayı münasibətilə təbrik edirəm”,* – deyə Kobaxidze vurğulayıb.

İftar süfrəsində, həmçinin Bütün Gürcüstan Müsəlmanları İdarəsinin dini liderləri çıxış edərək, Baş nazirə ənənəvi iftar süfrəsinə görə təşəkkürlərini bildiriblər. Onlar dövlətin müsəlman icmasına göstərdiyi diqqət və dəstəyə görə minnətdarlıqlarını ifadə edib, müsəlman vətəndaşların ölkənin inkişafına verdiyi töhfələr və dövlətə sədaqəti barədə danışıblar.

Dini liderlər Müsəlmanlar İdarəsinin əldə etdiyi nailiyyətlər və müsəlman icmasının qarşısında duran məsələlər haqqında da fikirlərini bölüşüblər.

## TÜRKİYƏ GÜRCÜSTANA YENİ SƏFİR TƏYİN EDİB

Türkiyə Prezidenti Rəcəb Tayyip Ərdoğan tərəfindən imzalanan sərəncama əsasən, **Mustafa Türker Arı** Türkiyənin Gürcüstandakı yeni fövqəladə və səlahiyyətli səfiri təyin olunub.

O, Ankara Universitetinin Siyasi elmlər fakültəsində beynəlxalq münasibətlər ixtisası üzrə təhsil alıb və uzun illər Türkiyənin Xarici İşlər Nazirliyində müxtəlif vəzifələrdə çalışıb.

Mustafa Türker Arı Türkiyənin müxtəlif diplomatik nümayəndəliklərində fəaliyyət göstərib, həmçinin Türkiyənin Niger Respublikasında səfiri vəzifəsində çalışıb.

Qeyd edək ki, Mustafa Türker Arıya qədər Türkiyənin Gürcüstandakı səfiri Ali Kaan Orbay idi. Martın 11-də Gürcüstanın daxili işlər naziri Geka Geladze Ali Kaan Orbay ilə vida görüşü keçirib.



Gürcüstanın Daxili İşlər Nazirliyinin yaydığı məlumata əsasən, görüş zamanı tərəflər bir daha Gürcüstan ilə Türkiyə arasındakı strateji tərəfdaşlığı və onun dərinləşdirilməsinin əhəmiyyətini vurğulayıblar.

Nazir görüşdə türk diplomata Gürcüstan ilə Türkiyə arasında sıx ikitərəfli əməkdaşlıq, xüsusilə hər iki ölkənin hüquq-mühafizə orqanları arasında mövcud effektiv tərəfdaşlıq münasibətlərinin inkişaf etdirilməsində verdiyi töhfəyə görə təşəkkür edib və gələcək fəaliyyətində uğurlar arzulayıb.

## KORRUPSİYAYA QARŞI MÜBARİZƏ TƏDBİRLƏRİ NƏTİCƏSİNDƏ 30 NƏFƏR HƏBS OLUNUB



Gürcüstan Dövlət Təhlükəsizliyi Xidməti (DTX) müxtəlif cinayət işləri üzrə aşkar edilmiş korrupsiya cinayətləri ilə əlaqədar 30 nəfəri həbs edib. Bu barədə Gürcüstan DTX məlumat yayıb.

Bildirilib ki, Dövlət Təhlükəsizliyi Xidmətinin Korrupsiyaya Qarşı Mübarizə Agentliyinin əməkdaşları tərəfindən Gürcüstanın müxtəlif bölgələrində həyata keçirilən genişmiqyaslı antikorrupsiya tədbirləri nəticəsində 12 müxtəlif cinayət işi üzrə aşkar edilmiş korrupsiya cinayətlərinə görə 30 nəfər həbs olunaraq məsuliyyətə cəlb edilib. Həbs olunan şəxslər rüşvət almaq, dələduzluq, vəzifəsindən sui istifadə, şantaj, vəzifə saxtakarlığı və s. maddələr üzrə ittiham olunurlar.

*“DTX-nin Korrupsiyaya Qarşı Mübarizə Agentliyi Gürcüstanın korrupsiyanın aşağı səviyyəsinə malik dünyanın aparıcı ölkələrindən biri olmasına nail olana qədər bütün növ korrupsiya cinayətlərinin aşkarlanması və qarşısının alınması üzərində işləməyə davam edəcək”,* – deyə məlumatda qeyd olunub.

## AVROPA KOMİSSİYASI GÜRCÜSTANIN DİPLOMATİK VƏ XİDMƏTİ PASPORTLARI ÜÇÜN VİZASIZ REJİMİ DAYANDIRIB

Avropa Komissiyası Gürcüstanın diplomatik və xidməti pasportları üçün vizasız rejimi dayandırıb.

Bu barədə Avropa Komissiyası martın 6-da bəyanat yayıb.

*“Bu gün Avropa Komissiyası Gürcüstanın diplomatik, xidməti və rəsmi pasport sahibləri üçün vizasız rejimi dayandırır. İndi onlar Şengen zonasına daxil olarkən vizaya malik olmalıdırlar. Bu, vizasız rejimin dayandırılması üzrə yeni gücləndirilmiş mexanizmin*



*tətbiq edildiyi ilk haldır. Qərar üzv dövlətlərin təsdiqindən sonra qəbul olunub”,* – bəyanatda bildirilib.

Həmçinin, qeyd olunub ki, qərar martın 6-sı 12 ay müddətinə, 2027-ci il martın 6-dək qüvvəyə minir.



# İFTAR SÜFRƏSİ VƏ ƏSAS MAHİYYƏTİ

Hacı Bəkiroğlu
haci-bekiroglu@hotmail.com

Ramazan ayı müsəlman cəmiyyətində birlik, paylaşma və mənəvi yaxınlaşma ayı kimi qəbul olunur. Bu ayda ən çox diqqət çəkən ənənələrdən biri də iftar süfrələridir. Məscidlərdə, ictimai məkanlarda, evlərdə və müxtəlif təşkilatların təşəbbüsü ilə iftar süfrələri açılır, insanlar bir araya gələrək oruclarını birlikdə açırlar. Bu barədə xəbərlər də paylaşılır. Lakin bəzən bu mövzuda müəyyən yanlış düşüncələrlə də qarşılaşmaq mümkündür. Bunu da əsasən paylaşılan xəbərlərə yazılan rəylərdə görmək mümkündür. Mövzu haqqında anlayışı olmayan insanlar özlərini yardımsevər kimi göstərməyə çalışaraq nəsə demək istəyirlər, ancaq anlamırlar ki, bu rəy onun özünün məlumatsızlığını ifşa edir.

Bəzi insanlar belə hesab edirlər ki, iftar süfrələri yalnız kasıblar və ehtiyac içində olan insanlar üçün təşkil olunmalıdır. Əlbəttə, ehtiyac sahiblərinə yardım etmək, onları sevindirmək Ramazan ayının ruhuna tam uyğun olan çox gözəl və savab bir əməldir. İmkanı olan insanların kasıbları düşünməsi, onların süfrəsinə sevinc qatması islamın təşviq etdiyi yüksək mənəvi dəyərlərdəndir. Bir çox şəxslər və ya qurumlar tərəfindən də bu cür xeyriyyə işləri həyata keçirilir.

Lakin iftarın mahiyyəti təkcə bununla məhdudlaşmır. İslam ənənəsinə görə, iftar süfrəsi ilk növbədə oruc tutan insanlara aiddir. Bunun səbəbi isə həzrət Peyğəmbərin – "Kim bir orucluya iftar verərsə, o da oruclu şəxs qədər savab qazanar. Oruclunun savabından da heç bir şey əskilməz" (Tirmizi, Savm 82) – hədisi-şərifidir. Oruclu insanın kimliyi – kasıb və ya imkanlı olması – burada əsas meyar deyil. Əsas olan onun oruc tutmasıdır. Çünki iftar gün boyu Allah rizası üçün aclıq və susuzluğa səbir edən möminlərin və müsəlmanların birlikdə süfrə başına toplaşaraq oruclarını açmasıdır.

Peyğəmbərimizin (s.ə.s.) yuxarıda vurğuladığımız hədisi kimi, bir çox digər hədislərində də orucluya iftar verən şəxsin böyük savab qazandığı bildirilir. Bu savab isə iftar verdiyin insanın maddi vəziyyətindən asılı deyil. Əsas olan oruclu bir insanın iftar etməsinə səbəb olmaq, onun sevincinə şərik olmaqdır. Bu baxımdan iftar süfrəsi həm ibadətin paylaşılması, həm də qardaşlıq və ünsiyyət mühitinin formalaşması deməkdir.

Ramazan ayının gözəlliklərindən biri də məhz insanların eyni süfrə ətrafında toplaşması, bir-birinə yaxınlaşmasıdır. İftar süfrələri təkcə yemək paylaşmaq deyil, həm də könüllərin yaxınlaşması, insanların bir-birinə dua etməsi, mənəvi bağların güclənməsi üçün bir vasitədir.

Bu səbəbdən iftar süfrələrinə yalnız sosial yardım prizmasından baxmaq doğru olmaz. Ramazan ayı həm də ümmət şüurunun, birlik və həmrəyliyin gücləndiyi bir zamandır. Oruclu insanlar – istər kasıb, istərsə də imkanlı – eyni süfrədə oturaraq bu mənəvi ab-havanı birlikdə yaşayırlar.

Əlbəttə ki, ehtiyac sahiblərini unutmaq olmaz. Əksinə, Ramazan ayı onları xatırlamaq üçün ən münasib zamanlardan biridir. Lakin bununla yanaşı, iftarın əsas mahiyyətini də düzgün anlamaq lazımdır: iftar, Allah rizası üçün oruc tutan insanların sevincini paylaşmaq və bu ibadətin bərəkətini birlikdə yaşamaqdır.

İftar süfrələrinin əsl gözəlliyi də məhz bundadır.

# ŞƏRQİN QƏDƏRİ



Müharibələr bəşəriyyətin sanki qədərinə yazılıb. Nə quldarlıq, nə feodalizm, nə providensionalizm, nə kapitalizm, nə sosializm bəşəriyyəti müharibəsiz bir quruluşa çıxara bilmədi. İnsan yaranandan bəri fitrətində acgözlük, mənimsəmə istəyi, başqasından güclü olmağa meyillilik var və bu da sosial iyerarxiyanın ən əsas səbəblərindən biridir. Halbuki acgözlüyümüz olmasa dünya hamımıza yetə bilər.

Müharibələr əsasən iki səbəblə başlayır: 1. Bir dövlət başqa dövlətin torpağını, sərvətini mənimsəmək üçün hərbi əməliyyata başlayır; 2. Bir dövlət başqa dövlətin cəmiyyəti arasında öz ideologiyasını, mədəniyyətini yaymaq məqsədi ilə hərbi əməliyyata başlayır. Tarix bu iki səbəblə də yaranan müharibələrə çox şahid olub. Orta əsrlərdə tarix elmi providensionalizmin hakim olduğunu və müharibələrin əsasən yuxarıda sadaladığım ikinci səbəbə, dinin yayılmasına görə baş verdiyini təsdiqləyir. Bəs mədəniyyətin yayılması üçün baş verən müharibəni müsbət qiymətləndirə bilərikmi? Məncə, xeyr. Çünkü hər toplum özünəməxsus mədəniyyətə sahibdir. Bir toplumun mədəniyyətini əlindən almaq canilikdir. Müsbət xüsusiyyətlərə gəldikdə isə onlar müharibəsiz də yayıla bilər. Məsələn, elmin müəyyən qədər yayılması kimi.

Bəs bu gün dünyada baş verən müharibələr hansı səbəbə görə baş verir? Bu gün insanın acgözlüyü daha da artıb və bir müharibə hər iki səbəbi də ehtiva edir. Mövzumuzun başlığı Şərq olduğu üçün Şərqdə baş verən müharibələri müzakirə etmək istəyirəm. Dünyanın gözündə mədəni görünən Amerika illərdir Şərqdə müstəmləkəçi siyasət icra edir. Həm Şərqin sərvətini talayır, həm də toplumun mədəniyyətinə, dininə, dilinə müdaxilə edir. Ürəyi istəsə yeni islam məzhəbi də qura bilir. Dünyanın gözündə isə Amerika terrorizmlə mübarizə aparan bir qəhrəmana çevrilib. Amma heç kim sual vermir ki, bu terrorizm niyə yarandı? Məgər Şərqdə terrorizmi Amerika yaratmadı? Qərbin imperialist siyasətindən qabaq Şərq ölkələri terrorist idi? Əksinə, Qərb ölkələri terrorist idi. Vətəndaş müharibələri kimi faktları sadalasaq Amerikanın özü terrorist idi. Bir tarixçiyə, politoloqa və ümumiyyətlə, analiz aparana ən böyük dəyər qazandıran onun obyektiv olmasıdır. Bu gün İranı hamı günahlandırır. Əlbəttə, müəyyən məsələlərdə İranın da mövqeyi səhv idi və o özü də sərhədlərində yaşayan toplumların mədəniyyətinə müdaxilə edirdi. Lakin bu gün Amerikanın İrana hərbi müdaxiləsinə necə haqq qazandıra bilərik? İran rejimini 1970-ci illərdə xalqın özü qurub. Bizim əsarətdədir dediyimiz güneyli soydaşlarımızın əksəriyyəti də o rejimi müdafiə edir. Amerika xalqı azad etmək istəyir? Əlbəttə, xeyr! Amerika girdiyi hansı dövlətdə xalqı azad edib? Yuxarıda sadaladığım səbəbləri xatırlayaq. Amerika bu gün İranın sərvətini mənimsək arzusundadır və həmçinin mədəniyyətinə müdaxilə edib əhalinin vahid ideologiya ətrafında birləşməsini istəmir. Çünkü vahid ideologiya ətrafında birləşən millətlərin hansı yüksəlişə malik olduğuna Amerika yaxşı bələddir. İkinci məsələmiz isə gözlərdə mədəniyyət heykəlinə çevrilən Amerika dövlətinin İsrail kimi təcavüzkar bir quruluşu necə qınamamasıdır.

İran hakimiyyətini müəyyən səbəblərə və ya öz çıxarlarımıza görə qınasaq da, öz xalqının müdafiə etdiyi rejimə qarşı çirkin bir əməliyyata başlayıb uşaqları, qadınları öldürərək nəyəsə nail olmağa çalışan ekspansionist və imperialist Amerika rejiminə haqq verməməli, onu gözümüzdə ədalət abidəsinə çevirməməli, baş verən hadisələrdən tarixə baxaraq nəticə çıxarmalı, öz gələcəyimiz üzərində güclü düşünməli, mövqeyimizi qorumalıyıq. Bəzən düşünmək üçün belə çox gec olur.

**Cəlal Yadigarlı**
*Tbilisi Dövlət Universitetinin Tarix fakültəsinin 4-cü kurs tələbəsi*

# SİYASƏTÇİLƏRDƏN ÇOX "EKSPERT" OLAN ADİ İNSANLAR



Son günlər dünya mediasının və sosial şəbəkələrin gündəmini demək olar ki, tək bir mövzu müəyyənləşdirir, Yaxın Şərqdə gərginliyin kəskin şəkildə artması və xüsusilə də İran-İsrail konflikti ətrafında baş verən hadisələr. Fevral ayının sonunda ABŞ və İsrail tərəfindən İrana qarşı həyata keçirilən genişmiqyaslı hücumlar regionda yeni və son dərəcə təhlükəli mərhələnin başlanğıcı kimi qiymətləndirildi. Qısa müddət ərzində İranın müxtəlif hərbi obyektlərinə yüzlərlə zərbə endirildi, hərbi infrastrukturla yanaşı yüksək səviyyəli rəhbər şəxslər də hədəf alındı və bu hücumların nəticəsində İranın siyasi-hərbi sistemində mühüm fiqurların həyatını itirməsi münaqişənin daha da genişlənməsinə səbəb oldu. Tehran isə bu hücumlara gecikmədən cavab verdi və İsrail ərazisinə, eləcə də Yaxın Şərqdə yerləşən ABŞ hərbi obyektlərinə raket və pilotsuz uçuş aparatları ilə zərbələr endirdi. Beləliklə, bir neçə gün ərzində lokal hərbi əməliyyat kimi görünən hadisələr regional təhlükəsizlik böhranına çevrildi və müxtəlif mənbələrin məlumatına görə, qarşılıqlı hücumlar nəticəsində hər iki tərəfdə ölən və yaralananların olduğu bildirildi. Müharibənin hər yeni epizodu dünya mediasında geniş şəkildə işıqlandırıldı və hadisələrin gedişi sanki real vaxt rejimində bütün dünyaya yayıldı. Lakin bu saydakı yazıda məqsədim bu müharibənin cəbhədə baş verən hərbi əməliyyatları haqqında danışıb yarımçıq və yersiz analizlər etmək deyil, yüzlərlə, minlərlə kilometr uzaqda yaşayan insanların bu münaqişə haqqında necə danışması, onu necə şərh etməsi və bəzən də necə qəti nəticələr çıxarmasından söz açmaqdır.

Müasir informasiya dövründə hər bir insan özünü bir növ analitik, strateq və ya geopolitik ekspert kimi hiss etməyə başlayır; sosial şəbəkələrdə, xəbər saytlarının şərh bölmələrində və gündəlik söhbətlərdə milyonlarla insan müharibəni sanki qərar qəbul edən siyasətçilər kimi müzakirə edir. Əslində, bu fenomen yeni deyil, lakin son illərdə informasiya texnologiyalarının sürətli inkişafı nəticəsində daha da güclənib. İnternet və sosial media platformaları hər kəsə real vaxtda məlumat əldə etmək imkanı verir və bu məlumat axını insanların hadisələr haqqında tez bir zamanda fikir formalaşdırmasına şərait yaradır. Lakin paradoks ondan ibarətdir ki, məlumatın çoxluğu onun düzgün başa düşülməsi demək deyil, əksinə, bir çox hallarda insanlar xəbərin yalnız başlığını oxuyaraq və ya qısa videolara baxaraq mürəkkəb geopolitik hadisələr haqqında qəti və dəyişməz mövqelər formalaşdırırlar.

İran-İsrail müharibəsi (konflikti) ətrafında baş verən hadisələr də bu baxımdan istisna deyil. Müharibənin hər yeni mərhələsi sosial mediada yeni bir "analiz dalğası" yaradır. Bir tərəf raket hücumlarının videolarını paylaşır, başqa bir tərəf hərbi əməliyyatların xəritələrini yayır, üçüncü qrup isə münaqişənin qlobal nəticələri haqqında müxtəlif proqnozlar irəli sürür. Nəticədə, müharibə haqqında informasiya axını yalnız jurnalistlər və ekspertlər tərəfindən deyil, eyni zamanda milyonlarla adi istifadəçi tərəfindən formalaşdırılır. Bu müzakirələrin maraqlı tərəfi yalnız virtual mühitlə məhdudlaşmamasıdır, müharibə haqqında fikirlər artıq gündəlik həyatın demək olar ki, hər məkanında səslənir və insanlar onu öz ağıllarının yetdiyi qədər analiz etməyə çalışırlar. Məsələn, avtobusda gedərkən iki sərnişinin bu mövzuda mübahisə etdiyini eşitmək, bazarda alış-veriş edənlərin birdən-birə geopolitik proqnozlar verməsi, çayxanalarda uzun-uzadı müzakirələr aparılması, toy və yas məclislərində, ailə süfrələrində və sadə dost söhbətlərində belə müharibənin "analizinin" səslənməsi artıq adi hala çevrilib. Sanki dünyanın müxtəlif guşələrində yaşayan insanlar birdən-birə beynəlxalq siyasətin ən mürəkkəb məsələləri haqqında hökm vermək səlahiyyətinə malik olublar. Lakin bu mənzərə bəzi yerlərdə daha spesifik və ironik formada ortaya çıxır. Məsələn, bu müzakirələr çox vaxt real faktlardan deyil, şayiələrdən, şəxsi təxminlərdən və emosional reaksiyalardan qaynaqlanır və gündəlik həyatın qayğıları ilə məşğul olan, beynəlxalq münasibətlər haqqında sistemli məlumatı olmayan insanlar belə bu müharibə haqqında böyük əminliklə danışır, bazarda tərəvəz alarkən Yaxın Şərqin gələcəyi haqqında proqnoz verirlər, avtobusda oturarkən hansı ölkənin hansı strategiyanı seçəcəyini izah edir, çayxanada isə qrup şəklində müharibənin nəticələrini sanki hərbi qərargahın içindəymiş kimi müzakirə edirlər. Bu müzakirələr çox vaxt real faktlardan çox ehtimallara və şayiələrə əsaslanır. Bəzən isə mövzu tamamilə əlaqəsiz məsələlərlə qarışdırılır və nəticədə əsassız panika yaranır. Kimlərsə müharibənin qısa müddətdə bütün regiona yayılacağını iddia edir, digərləri isə bunun yaxın gələcəkdə üçüncü dünya müharibəsinə çevriləcəyini söyləyir. Hətta bəzən bu müzakirələr gündəlik həyatla əlaqəsi olmayan qəribə nəticələrə gətirib çıxarır: "Bu müharibə başlayarsa burada da vəziyyət dəyişəcək", "sərhədlər bağlanacaq", "bütün ölkələr müharibəyə qoşulacaq", "Rusiya hər yeri dağıdıb sonra SSRİ-ni yenidən bərpa edəcək" və s. kimi fikirlər ciddi arqument kimi səsləndirilir.

Bu mənzərəyə müəyyən mənada sosial-psixoloji bir fenomen kimi də baxa bilərik. Məsələn, bir vaxtlar uşaqların ən böyük mübahisə mövzularından biri "kim daha güclüdür" sualı idi və bu mübahisələr çox vaxt məşhur kino qəhrəmanları ilə bağlı olurdu. Kimsə Jan-Klod Van Damm tərəfdarı olurdu, digəri isə Brüs Linin daha güclü olduğunu sübut etməyə çalışırdı. Həmin mübahisələr emosional olsa da, əslində, sadə uşaq müzakirələri idi. Bu gün isə bəzən elə təəssürat yaranır ki, həmin mübahisələrin mövzusu sadəcə dəyişib: "Van Damm, yoxsa Brüs Li?" sualının yerini "İran, yoxsa İsrail?" və ya "Rusiya, yoxsa ABŞ?" sualı tutub. Maraqlıdır ki, bu dəyişiklik yalnız mövzuda deyil, həm də müzakirənin miqyası və təsirində özünü göstərir. İndi bu "uşaq mübahisələri" sosial şəbəkələrdən tutmuş, yuxarıda da qeyd etdiyim kimi, bazar, avtobus, çayxana, toy və yas yerlərinə qədər bütün gündəlik məkanlara daxil olub və insanları hərbi və diplomatik qərarları müzakirə etməyə vadar edir. Əksər hallarda isə bu müzakirələr səthi məlumat və şəxsi təxminlər üzərində qurulur və beləliklə, hər bir iştirakçı özünü ekspert kimi təqdim edir, amma, əslində, mövzuya dair kifayət qədər bilik yoxdur.

Əlbəttə ki, beynəlxalq hadisələr haqqında danışmaq və fikir bildirmək hər bir insanın haqqıdır. Lakin problem o zaman yaranır ki, mürəkkəb geopolitik proseslər səthi məlumatlara əsaslanaraq qəti və dəyişməz nəticələrlə izah edilir. Sosial mediada tez-tez belə fikirlərlə rastlaşmaq mümkündür: "İran qalib gələcək", "İsrail bu müharibəni qazanacaq", "bu, üçüncü dünya müharibəsinin başlanğıcıdır". Bu cür qəti fikirlər isə çox vaxt hadisələrin real mürəkkəbliyini nəzərə almır. Əslində, müharibənin real nəticələrini qiymətləndirmək üçün hərbi strategiya, diplomatiya, beynəlxalq hüquq və regionun tarixi kimi sahələr üzrə dərin bilik tələb olunur. Lakin informasiya mühitində bu sərhəd getdikcə silinir və nəticədə ekspert rəyi ilə şəxsi təəssürat arasındakı fərq bəzən görünməz hala gəlir. Müasir mediada baş verən əsas dəyişikliklərdən biri də bununla bağlıdır. Əvvəllər insanlar xəbərləri əsasən passiv şəkildə izləyən "müşahidəçi auditoriya" idisə, bu gün onlar xəbəri şərh edən, paylaşan və bəzən də ona yeni mənalar verən "aktiv auditoriyaya" çevriliblər. Xəbər artıq yalnız jurnalistlərin hazırladığı mətn deyil; o, sosial mediada davam edən uzun müzakirələrin başlanğıc nöqtəsinə çevrilir. Lakin bu prosesin təhlükəli tərəfi də var. Müharibə kimi həssas mövzularda yayılan qeyri-dəqiq məlumatlar və emosional şərhlər bəzən cəmiyyətdə lazımsız gərginlik və panika yaradır. İnsanlar real vəziyyəti anlamadan müxtəlif ehtimallar üzərində mübahisə edir və bu mübahisələr bəzən faktlardan daha sürətlə yayılır.

Nəticə etibarilə, İran-İsrail konflikti yalnız hərbi və siyasi hadisə deyil, həm də müasir informasiya mühitinin necə işlədiyini göstərən bir nümunədir. Bu müharibə göstərir ki, bugünkü dünyada geopolitik hadisələr artıq yalnız diplomatların və generalların mövzusu deyil. Onlar eyni zamanda avtobuslarda, bazarlarda, çayxanalarda, toy və yas məclislərində müzakirə olunan gündəlik söhbət mövzularına çevrilir. Bəlkə də müasir dünyanın ən ironik mənzərələrindən biri məhz budur. Böyük siyasi qərarlar çox vaxt kiçik telefon ekranlarında və təsadüfi söhbətlərin içində şərh olunur. Və bəzən müharibənin özü qədər diqqət çəkən məqam onun haqqında danışan insanların nə qədər çox və nə qədər "əmin" olmasıdır. Lakin qeyd etmək lazımdır ki, bu əminlik heç də hadisələrin reallığını əks etdirmir, çünki, necə ki, Noam Çomski də bir dəfə qeyd etmişdi: "İnsanlar hadisələri şərh etməyi sevirlər, amma əksər hallarda başa düşməkdən daha çox danışmaqla məşğuldurlar."

**Çiyalə Osmanova**
*Tbilisi Dövlət Universitetinin Sosial və siyasi elmlər fakültəsinin 2-ci kurs tələbəsi*

# "ÖZÜMLƏ MÜSAHİBƏ" RUBRİKASININ QONAĞI GƏNC HƏKİM NEFROLOQ XƏYAL DƏMİRÇİYEVDİR



**– Özünüzü oxuculara tanıdın.**

– Mən Xəyal Dəmirçiyev Elimxan oğlu, 1994-cü il dekabrın 16-da Marneuli rayonunun Kəpənəkçi kəndində anadan olmuşam.

Təhsilimi Kəpənəkçi kənd orta məktəbində almışam. 2012-ci ildə məktəbi bitirdikdən sonra ali təhsilimi 1+4 hazırlıq proqramı ilə qəbul olduğum Tbilisi Dövlət Tibb Universitetinin müalicə fakültəsi üzrə davam etdirmişəm. 2020-2023-cü illərdə nefrologiya və hemodializ sahəsi üzrə ixtisaslaşmışam.

Hazırda Marneuli rayonunda və Tbilisi şəhərində bir neçə klinikada həkim nefroloq olaraq fəaliyyət göstərirəm.

**– Özünü bir cümlə ilə necə tanıdardın?**

– İnsanları müalicə etməyə çalışan, insan qalmağa çalışan bir həkiməm.

**– Niyə həkim oldunuz?**

– Çünki faydalı olmaq istədim. Həyatın ən çətin anlarında kiminsə yanında dayanmaq mənə həmişə mənalı gəlib.

**– Ağ xalat sənin üçün nədir?**

– Məsuliyyətdir. Hər dəfə geyinəndə bilirəm ki, sözlərim və qərarlarım kiminsə həyatına toxunacaq.

**– Həkimlik səni dəyişdirdimi?**

– Bəli. Daha səbirli, amma daha yorğun; daha anlayışlı, amma daha səssiz etdi.

**– Səni ən çox yoran nədir?**

– Güclü görünmək məcburiyyəti. Halbuki bəzən mənim də dayanıb nəfəs almağa ehtiyacım olur.

**– Özünə son vaxtlar verdiyin ən vacib sual nədir?**

– Mən başqalarına göstərdiyim qayğını özümə də göstərə bilirəmmi?

**– Həkim olmaq səni sərtləşdirdi, yoxsa daha həssas etdi?**

– İnsan ağrısını çox gördükcə sərtləşdiyini düşünürsən, amma həqiqət budur ki, daha həssas olursan. Sadəcə bunu göstərməməyi öyrənirsən.

**– Səni ən çox sındıran an nə olub?**

– Əlindən gələni etdiyini bildiyin halda nəticənin istədiyin kimi olmaması. O an anlayırsan ki, tibb hər şeyi bacarmır.

**– Heç "mən də yoruldum" demək istəmisənmi?**

– Çox. Amma bəzən həkimlər yorğunluğunu gizlətməyi peşənin bir hissəsi kimi qəbul edirlər.

**– Pasiyentlərin səndən nəyi hiss etmələrini istəyirsən?**

– Təhlükəsizlik. Bilsinlər ki, qarşılarında sadəcə resept yazan biri yox, onları anlayan bir insan var.

**– Bu peşədə ən vacib keyfiyyət nədir?**

– Səbir. Təkcə xəstəyə yox, özünüzə qarşı da səbirli olun. Hər şeyi bir gündə bilməyəcəksiniz və bu normaldır.

**– İlk illərdə ən çox nə çətin olacaq?**

– Qərar vermək. Çünki hər qərarın arxasında bir həyat dayanır. Qorxacaqsınız, amma qorxu məsuliyyətin göstəricisidir.

**– Səhv etməkdən qorxmaq lazımdırmı?**

– Səhvdən yox, səhvdən nəticə çıxarmamaqdan qorxun. Tibb daim öyrənmək deməkdir.

**– Yaxşı həkim olmaq üçün sirr nədir?**

– Dinləməyi bacarmaq. Bəzən diaqnoz laboratoriyada yox, xəstənin cümlələrində gizlənir.

**– Gənc həkimlərə son sözünüz?**

– Vicdanınızı qoruyun. Heç vaxt öyrənməyi dayandırmayın. Özünüzü başqaları ilə müqayisə etməyin. Xəstənin gözündə ümid olun, amma öz həyatınızda işıq qalın. Unutmayın, diplom sizi həkim edir, amma insanlıq sizi yaxşı həkim edir.

**– Sonda nə demək istərdiniz?**

– Mənə belə bir fürsət verdikləri üçün "Yeni yol" qəzetinə və dəyərli insan Azər Musaoğluna təşəkkürümü bildirirəm. İşlərinizdə uğurlar arzulayıram!

***Qeyd edək ki, "Özümlə müsahibə" rubrikasında sual verən də, cavab verən də eyni adam olur. Sualları müsahib özü seçir. Müsahibədə heç bir senzuraya yol verilmir və olduğu kimi dərc edilir.***

# İNSANLIĞIN UÇURUMU



Yaşadığımız müasir dünyada texnologiya, elm, tibb, bir sözlə, həyatın bütün sahələri sürətlə inkişaf edir. Alimlər durmadan kainatı araşdırır, xəstəliklərə çarə tapır, həyatı asanlaşdıran saysız-hesabsız yeniliklər ixtira edir. İnsan ağlının yaratdıqları, bəzən insanın özünü belə heyrətləndirir. Lakin bütün bu inkişafa baxmayaraq dəyişməyən bir həqiqət var. O da insanın bitib-tükənmək bilməyən acgözlüyüdür.

Məhz bu acgözlük müharibələrin əsas səbəblərindən birinə çevrilir. Sanki bəşəriyyətin tək bir dərdi var, hər şey mənim olsun, ən güclü və ən varlı mən olum, dünyada nə varsa hamısı mənə məxsus olsun. Halbuki bu istək güc arzusu deyil, insanlığın özünü məhvə aparan böyük bir təhlükədir.

Hazırda bir çox ölkələrdə üstünlük qazanmaq üçün baş verən silahlı qarşıdurmalar minlərlə insanın həyatına son qoyur, milyonlarla insanı doğma yurdunu tərk etməyə məcbur edir. Səbəb isə ölkəni idarə edənlərin acgözlüyüdür. Müharibə yalnız torpaq uğrunda mübarizə deyil, həm də insanlığın vicdanına, dəyərlərinə və gələcəyinə vurulan ağır zərbədir.

Baş verən münaqişələr açıq şəkildə göstərir ki, siyasi maraqlar, güc uğrunda rəqabət və iqtisadi üstünlük arzusu çox zaman insan həyatından daha üstün tutulur. Dövlətlərin və hakimiyyətlərin qurduğu bu sərt oyunlarda ən böyük zərbə silah tutmayan, müharibəni istəməyən sadə insanlara dəyir. Müharibənin alovu ilk növbədə onların evlərinə düşür, onların həyatını alt-üst edir.

Müharibələrin ən ağır yükünü həmişə sadə insanlar daşıyır. Çünki səngərlərdə can verənlər də, bombaların altında qalan şəhərlərdə yaşamağa çalışanlar da elə onlardır. Siyasi qərarları verənlər təhlükəsiz otaqlarda xəritələr üzərində sərhədlər çəkərkən həmin qərarların nəticəsini insanlar öz həyatı ilə ödəyir. Bir gecənin içində evlər xarabalığa çevrilir, illərlə qurulan həyat bir anda dağılıb külə dönür.

Dağıdılmış şəhərlər, yetim qalan uşaqlar, evsiz qalan ailələr və sarsılmış talelər müharibənin görünən tərəfidir. Amma görünməyən tərəfi daha ağırdır. Ömrü boyu unudulmayan qorxu, insanın içində açılan sağalmaz yaralar, itirilmiş uşaqlıq, yarımçıq qalan arzular. Müharibə təkcə binaları yox, insanların ruhunu da dağıdır. Bir uşaq atasını itirəndə, bir ana övladını torpağa verəndə, bir insan doğma yurdunu tərk etmək məcburiyyətində qalanda müharibə amansız üzünü göstərir.

Ən acısı isə budur ki, bəşəriyyət bütün bu faciələri dəfələrlə yaşasa da, tarixdən dərs çıxarmaqda hələ də çətinlik çəkir. Texnologiya inkişaf edir, elm irəliləyir, dünya daha da müasir görünür, amma insanın içindəki acgözlük və hakimiyyət ehtirası dəyişmir. Halbuki müharibə heç vaxt qalib yaratmır, heç bir müharibədə qazanan tərəf olmur. Müharibə yalnız dağıdılmış şəhərlər, parçalanmış ailələr və yaddaşlarda qalan dərin yaralar qoyur.

Bəlkə də insanlığın qarşısında duran ən böyük sual elə budur. Bu qədər acıdan, bu qədər göz yaşından sonra nə vaxt başa düşəcəyik ki, heç bir torpaq, heç bir sərvət, heç bir siyasi maraq insan həyatından daha qiymətli deyil? Sülh yalnız bir seçim deyil, bəşəriyyətin yaşaması üçün yeganə yoldur.

Bununla yanaşı, müharibələr yalnız cəbhə xəttində deyil, insanların psixologiyasında da dərin yaralar açır. Qorxu, travma, itki hissi və gələcəyə inamsızlıq bütöv bir nəslin taleyinə təsir edir. Dünyanın müxtəlif ölkələrində insanlar sülh və təhlükəsizlik içində yaşamaq istəsələr də, siyasi qərarlar bəzən onların bu arzusunu kölgədə qoyur.

Bu yaxınlarda müharibə davam edən ölkələrin birində yaşayan rəfiqəmlə əlaqə yaratmışdım. Onun danışdıqları məni dəhşətə salırdı. Yaşadıqları şəhər müharibə zonası olmasa da ölkədə davam edən münaqişələrin, atışmaların onlara necə təsir etdiyindən danışırdı. Bu vəziyyətdə ən çox yara alan, təəssüf ki, uşaqlar olur. Hər an hücuma məruz qala bilərlər deyə təhsildən yayınırlar. Həyəcan siqnalı çalıb sığınacaqlara qaçacaqlar deyə hər dəqiqə tikan üstündə dururlar. Qısası uşaqlıqlarını, ən gözəl yaşlarını yaşaya bilmirlər. Qorxu, təşviş, həyəcan içində, travma alaraq böyüyürlər.

Tarix göstərir ki, müharibələr heç vaxt həqiqi qalib yaratmır. Bu qarşıdurmaların sonunda həm qalib, həm də məğlub tərəf böyük itkilərlə üzləşir. Bəşəriyyət üçün ən böyük qələbə isə silahların susduğu, insanların sülh və qarşılıqlı anlayış içində yaşadığı bir dünyanın qurulmasıdır. Çünki sülh yalnız müharibənin olmaması deyil, həm də insan həyatının ən ali dəyərlərindən biridir.

**Afaq Azər**



# "YENİ YOL" "VOGUE" MODA JURNALININ "PARLAYAN ULDUZ" ADLANDIRDIĞI, MİLANDA YAŞAYIB-YARADAN, QARACALARDAN OLAN GƏNC MODA DİZAYNERİ QALİB HƏSƏNOVUN AZADLIQ RADİOSU İLƏ MÜSAHİBƏSİNİ AZƏRBAYCANDİLLİ OXUCULARA TƏQDİM EDİR

*Qardabaninin Qaracalar kəndindən olan 31 yaşlı Qalib Həsənov bu gün Milanda modanın ən maraqlı gənc dizaynerlərindən biri hesab olunur. "Vogue" jurnalı onu parlayan ulduz adlandırır. Fevralın sonunda Milan Moda Həftəsi Qalibin "Institution" (İnstitusiya) layihəsinin nümayişi ilə açıldı.*

*Bu müsahibədə etnik azərbaycanlı olan moda dizayneri ilə onun Kvemo Kartlidə keçən uşaqlığından, Tbilisidən Milana qədər olan yolundan, moda, mədəniyyət, kimlik, yaddaşdan söhbət açmışıq.*

**Azadlıq Radiosu:** Qalib, son günlərdə Avropa mətbuatı sizdən çox yazırdı. 18 yaşınız olanda, 2013-cü ildə Gürcüstandan Milana təhsil almağa getdikdən sonra Gürcüstanda keçirilən müsabiqənin, BENEXT-in qalibi oldunuz. Milana və məşhur "Vogue" jurnalının sizi adlandırdığı kimi "parlayan ulduzluğa" qədər nə baş verirdi?

**Qalib Həsənov:** Mən Qardabani rayonunun Qaracalar kəndində dünyaya gəlmişəm. Bu kəndi Qaçiani də adlandırırlar. Bu azərbaycanlıların sıx məskunlaşdığı yerdir. Mən də azərbaycanlı ailəsində dünyaya gəlmişəm və böyümüşəm. 18 yaşa qədər orada yaşamışam. Azərbaycan məktəbini də orada bitirdim. Gürcü dili və ədəbiyyatını da öyrənirdik. Dillərlə çox maraqlanıram və ona görə gürcü dili mənim sevimli fənnim idi. Həmişə gürcü, eləcə də ingilis dilini yaxşı öyrənmək istəyirdim və bu istək ailəmdən də gəlirdi.

*Qalib Həsənov Qaracalar məktəbini bitirdikən sonra 1+4 proqramı ilə Tbilisi Teatr Universitetinə qəbul olub. Etnik azlıqlar üçün tələbəliyin ilk ili hazırlıq idi, sonra istədiyin fakültəni seçirdin. Qalib təhsilini rejissorluq fakültəsində davam etdirməyi düşünürdü. Ancaq eyni zamanda, bununla yanaşı başqa təhsil müəssisəsində də dizayn və incəsənət oxuyurdu. BENEXT haqqında da məhz orada məlumat alır və iştirak etmək üçün kolleksiya hazırlamağa başlayır. Müsabiqədə qalib gəlir və Milanın "Haute Future Fashion Academy"-də birillik pulsuz təhsil almaq hüququ qazanır.*

**Azadlıq Radiosu:** O zaman necə kolleksiya hazırladınız? Və indi, neçə ildən sonra debütünüz haqqında nə düşünürsünüz?

**Qalib Həsənov:** Mən yenə də hesab edirəm ki, mənə çox yaxın kolleksiya idi. Tam qara rəngdə. Ancaq o zaman istifadə etdiyim texnika çox sadəlövhcəsinə idi. Bunların hamısını hələ öyrənməmişdim. O kolleksiyaya baxanda 17 yaşlı özümü görürəm və hesab edirəm ki, həqiqidir. Hər şey onunla başladı.

**Azadlıq Radiosu:** Deyə bilərikmi ki, bu peşə sizin başdan arzuladığınız peşə idi, ona doğru təsadüfən deyil, məqsədyönlü şəkildə addımlayırdınız?

**Qalib Həsənov:** Düşünürəm, hə, ancaq kənddə böyüdüyüm zaman təəssüratım yox idi ki, moda dizaynı peşə olaraq mövcuddur. Bununla özünü ifadə etmək mümkün imiş. Sadəcə altı-yeddi yaşımda geyim və ayaqqabılar çəkirdim, sonra həmin rəsmləri öz sinif yoldaşlarıma hədiyyə edirdim.

**Azadlıq Radiosu:** Evdə sizin bu marağınızı necə qarşılayırdılar?

**Qalib Həsənov:** Müxtəlif şəkildə, ancaq anam tərəfindən həmişə dəstəyim var idi və o, heç vaxt "bu oğlan işi deyil" sözünü deməyib. Bu baxımdan çox sərbəst idim. Yenə də həmişə bu stereotipləri eşidirdim. Bu mədəniyyətdə də öz yerini almışdı və həmişə bunu gizlədirdim. Buna görə də kino rejissorluğu fakültəsinə daxil olmaq istəyirdim ki, orada kostyumlarla təmasım olsun. Müəyyən bir anda mən məqsədyönlü şəkildə buna doğru can atmağa başladım, çünki hiss edirdim ki, bu sahə özümü ifadə etməyin ən yaxşı yoludur. Elə bir sahə ki, orada sən geyim yaradırsan, lakin model vasitəsilə həm də xarakter yaradırsan. Bura musiqini, etnoqrafiyanı da daxil edə bilərsən...

*Qalib Həsənovun heç vaxt xaricdə təhsil almaq planı olmayıb. Səbəblərdən biri ailəsinin onu xaricdə təhsil almağa göndərmək üçün maddi imkanının olmaması idi. Məqsədlər də həmişə Tbilisi və orada təhsil almaqla əlaqəli idi. "Avropa arzu ola bilərdi, amma bu o zaman mənim üçün reallıqdan uzaq idi". Ona görə də 2013-cü ildə müsabiqəni qazananda valideynlərindən onu Milana göndərə və maddi dəstək göstərə biləcəklərini soruşdu. Çünki pulsuz olan yalnız təhsil almaq idi. Onlar dedilər ki, bir il nəsə edə bilərdilər və Qalib bu imkanı əldən verməməlidir. O, bu günə qədər yaşadığı İtaliyaya belə gedib çıxıb.*

**Qalib Həsənov:** Bir müddət mağazada da işlədim. Dərsdən sonra suvenir satırdım. Milanda işin olmasa yaşamaq asan deyil. Yaxşı əməkhaqqım var idi və orada qalmaq, karyeramı davam etdirmək istəyirdimsə həm də işləməli idim.

**Azadlıq Radiosu:** Və indi belə bir hiss varmı ki, bu doğru qərar idi və siz doğru yerdəsiniz?

**Qalib Həsənov:** Başdan, birinci ay Gürcüstana qayıtmaq istəyirdim. Gürcüstanı çox sevirdim və burada qalmaq istəmirdim. Ancaq altı ay ərzində başa düşdüm ki, Gürcüstanda sevdiyim bu işi görmək perspektivim olmayacaq. Ona görə də qaldım. Həm də burada özümü sərbəst ifadə etmək imkanım var idi.

*Qalib Həsənovun kurs yoldaşı Luka Lin ilə birlikdə Reco Emiliada hazırladığı ilk brend "Act n°1" idi. Bu brendin əsas konsepsiyası multikultural layihə yaratmaq idi. Bu layihə iki müxtəlif mədəniyyətlərdə böyümüş dizaynerin fərqli baxışlarını birləşdirəcəkdi. Kolleksiyaların əsas ilham mənbəyi isə uşaqlıq təəssüratları və xatirələri idi.*

**Qalib Həsənov:** Biz iki il ərzində bu kolleksiyanı özümüz kəsib tikirdik. Assistentimiz də olmayıb. Bizi mənim etnik azərbaycanlı olmağım, Gürcüstanda doğulmağım, Lukanın isə etnik çinli olması, amma İtaliyada doğulub-böyüməsi əlaqələndirirdi. Evdə başqa mədəniyyətlərlə əlaqəmiz var idi və bayırda isə həmişə başqa mədəniyyətlə qarşılaşırdıq. Məhz buna görə də bu brend multikultural kontrastların qovuşması ideyası üzərində qurulub.

**Azadlıq Radiosu:** Sizin "uşaqlıq hekayəniz" və ya bu brendin ilk kolleksiyaları üçün ilham mənbəyi olan, xüsusi diqqət yetirdiyiniz mövzu nə idi?

**Qalib Həsənov:** Biz tez-tez sosial mövzulara toxunurduq. Məsələn, məni qızların erkən evləndirilməsi mövzusu narahat edirdi və bu, həmin kolleksiyada da öz əksini tapıb. Bu barədə əksər hallarda əl işlərimlə danışırdım. Yeddi il Lukanın doğma şəhərində belə işlədik, sonra genişləndik və Milana köçdük.

**Azadlıq Radiosu:** 2017-ci ildə sizin brend "Vogue İtalia"nın "Who is on Next?" müsabiqəsində qalib gəldi. Başqa çox uğurlarınız da var idi. Bu yaxınlarda siz Kopenhagendə keçirilən gənc dizaynerlərin "Zalando Visionary Award" beynəlxalq müsabiqəsində də qalib gəldiniz. Belə qələbələr moda dizaynerlərinə hansı yolları açır?

**Qalib Həsənov:** Bu, yəqin ki, prestijdir və hər hansı dizaynerin düzgün yolda dayandığını da təsdiq edir. Daha çox müzakirə olunursan. Alıcı gəlir və bu işin biznes tərəfi daha da inkişaf edir. Bir də ki, baxır müsabiqəyə, məsələn, "Who is on Next?" müsabiqəsi İtaliyada mütləq istehsalının olması şərtini daşıyan yeganə müsabiqə idi. O zaman bizim çox ciddi, etnik italyan rəqiblərimiz var idi...

**Azadlıq Radiosu:** "Act n°1" kifayət qədər uğurlu bir brend idi, lakin siz yeni layihəniz olan "Institution"u başlamağa qərar verdiniz və Milan moda həftəsinin açılışı da məhz bu brendin nümayişi ilə keçirildi. Nəsə yeni bir şeymi etmək istəyirdiniz?

**Qalib Həsənov:** "Act n°1" daha uğurlu biznesə çevrildi. Özümü ifadə etmək üçün vaxtım qalmırdı. Biznes belə böyüyəndə orada yaradıcılığa vaxt ayırmaq çətin olur. Ona görə də bu qərarı qəbul etdim, lakin mən və Luka bu günə qədər də yaxşı dostlarıq.

"Institution"u təsis etdim, hansını ki, brend deyil, layihə adlandırıram. Burada daha çox azadlığım var, özümü daha çox ifadə edirəm və hesab edirəm ki, burada yalnız moda deyil, bir çox hekayələr yer alıb. Ən əsası, hekayələri danışan mən – Gürcüstanda böyümüş etnik azərbaycanlı, Gürcüstan vətəndaşı yaxşı görünürəm. Və moda sahəsində hər kəsin çox sürətli şəkildə çoxlu geyim satmaq istəməsinə, hər kəsin məşhurlaşmağa can atmasına baxmayaraq, mənim üçün təqdim etdiyim hər şeyin limitli olması vacibdir. Keyfiyyət mənim üçün çox önəmlidir.

**Azadlıq Radiosu:** 2024-cü ildə "Harpers Bazaar" ilə müsahibənizdə deyirdiniz ki, "Institution"un əsas mesajı belədir: Nə geyindiyimizi bilək, bizim bədənimiz hansı geyimə, hansı materiala aiddir... Moda sizin üçün həm də özünüifadədirmi? Geyim yaratmaqdan əlavə, mövqeyinizi ifadə etməyə çalışdığınız bir vasitədirmi?

**Qalib Həsənov:** Mənə elə gəlir ki, evdən necə çıxmağımız, nə geyinməyimiz – bu özü də bir növ özünüifadədir. Ancaq tarixi nəzərdən baxsaq, məsələn, papağı necə örtürmüşlər, yaxud çiyinlərinə necə kürk, ya çoxa atırdılar – bunlar hamısı siyasi idi və hamısının öz mesajı var idi.

Mən də nümayişə hazırlaşanda həmişə düşünürəm ki, mənim bu qədər platformam var, lap elə Milan moda həftəsi. Mən burada yalnız geyim göstərsəm, hesab edirəm ki, bu, vaxt itirmək olardı. Ona görə də həmişə çalışıram ki, hekayə danışım. Həm də burada diqqət böyükdür, media sənə baxır.

*(davamı səhifə 6-da)*

*(əvvəli səhifə 5-də)*

Nəyisə yaxşılığa doğru dəyişmək, insanlara nəyisə başa salmaq imkanı böyükdür. Üstəlik, bizim barəmizdə, ümumiyyətlə, çox şey bilmirlər. Əksəriyyət Gürcüstanda da Kvemo Kartlidən xəbərsizdir, bunu mən bilirəm, çünki orada böyümüşəm. Bunu beynəlxalq auditoriyaya da tanıtmaq istəyirəm.

**Azadlıq Radiosu:** Yəqin ki, ilk müsəlman deputat qadın, Pəri xanım Sofiyevadan da ona görə danışdınız?

**Qalib Həsənov:** Bəli və bununla əksər hallarda hər şeydə birinci olduqlarını düşünən avropalılara xatırlatdım ki, o dövrdə ilk demokratik respublika zamanı Gürcüstan və Azərbaycan qadınların seçkidə səs hüququnu əldə etdilər. Bu, onlar üçün yenilik idi. Çünki İtaliyada, yaxud İsveçrədə qadınlar bu hüququ olduqca gec əldə ediblər.

*Pəri xanım Sofiyeva Kvemo Kartlinin Qaracalar kəndində 1884-cü ildə anadan olub. 1918-ci ildə müstəqil Gütcüstanın Parlament seçkilərində Pəri xanımı deputat seçiblər. O, yalnız Gürcüstanda və Qafqaz regionunda deyil, bütün dünyada ilk demokratik şəkildə seçilmiş müsəlman qadın deputat idi.*

**Azadlıq Radiosu:** Konkret olaraq Sofiyevanın hekayəsi və onun adı sizin kolleksiyaya necə təsir göstərdi?

**Qalib Həsənov:** Mən nümayişə baş örtüklərinin nümayişi ilə başladım. Bu, birbaşa ənənəvi tarixi geyimdən götürülməmişdi, aydındır, amma bu, 18-ci əsrin sonunda etnik və dini işarəyə görə qadınların daşıdığı baş örtükləri idi. Pəri xanım Sofiyevanın da bu cür baş örtüyü olub. İlk respublika dövründə azərbaycanlı qadınlar etiraz əlaməti olaraq yavaş-yavaş bu baş örtüyünü açmağa başladılar.

Mənim nümayişimdə də başdan modellər bu baş örtükləri ilə çıxırlar, sonra açırlar. Sonda isə Azərbaycan xalçaları ilə çıxırlar. Həmin xalçaları azərbaycanlı qadınlar toxuyur. Mən belə şeyləri göstərmək istəyirəm. Çünki moda mənim üçün qlamurla assosiasiya olunmur. Hər şeyi mən yaradıram – çəkirəm, layihələşdirirəm, kəsirəm və tikirəm. Mənim üçün sevdiyim işi görmək imkanımın olması zənginlikdir.

**Azadlıq Radiosu:** Sizin üçün uğur nədir?

**Qalib Həsənov:** Yalnız dəb industriyasında, tənqidçilərdən deyil, həm də ictimaiyyət tərəfindən qəbul edilib tanınmaq. Məsələn, məni hamı maraqlandırmır. İnfluenserlərlə əməkdaşlıq etmirəm. Öz geyimimizi kimə geyindirəcəyimizi və kiminlə əməkdaşlıq edəcəyimizi ehtiyatla, məqsədyönlü şəkildə seçirik. Mən istəyirəm öz auditoriyamı yaradım, kiçik olsun, amma ideyanı başa düşsünlər. Mənim arzum bilbordlarımın, mağazalarımın olması deyil. Mən istəyirəm ki, öz atelyem olsun, orada öz komandamla kolleksiyalarımı yaradım – mənim üçün uğur budur.

**Azadlıq Radiosu:** Məşhur insanların sizin geyimlərinizi geyinməsi nə dərəcədə vacibdir? Bilirik ki, Beyonse ilə əməkdaşlıq etmisiniz. Bəs başqaları? Bilirəm ki, Tilda Svintonu çox sevirsiniz...

**Qalib Həsənov:** Tilda Svinton, Keyt Blanşet də ola bilər. Məsələn, ötən həftə Keyt Blanşet üçün bir geyim obrazı istədilər, bizim kolleksiyanı instaqramda görüblər, bəyəniblər və Londona göndərməyimizi xahiş etdilər.

Ancaq, ümumiyyətlə, biz onları, məşhur adamları axtarmırıq. Bilərəkdən kiməsə yazmırıq. Düşünürəm, zamanı gələcək və bu adamlar bizi bəyənəcək, ya da bu geyimi geyinməlidirlər kimi hissləri olacaq. Mən Ledi Qaqa, Beyonse, Hollivudun digər məşhur adamları ilə işləmişəm. Amma hesab etmirəm ki, bu əsas uğur idi. Lakin aydındır ki, bu, hansı böyüklükdə auditoriya qarşısına çıxmaq istədiyindən də asılıdır.

*Məşhur moda dizaynerləri arasında Qalib Həsənovun ilham mənbəyi Con Qalliano (John Galliano) olub. O xatırlayır ki, 13 yaşında ilk dəfə internetə çıxış əldə edəndə Qallianonu kəşf edib və əmin olub ki, geyim yaratmaqla insan özünü ifadə edə bilər – "Onun o dövrkü kolleksiyalarında (Misir və Balkan mövzularında) mənim çox sevdiyim etnoqrafiya çox aydın şəkildə görünürdü".*

**Azadlıq Radiosu:** Qalib, sizə ən yadda qalan kompliment olaraq nə deyiblər? Və əksinə, tənqid?

**Qalib Həsənov:** Mənə geyimin mənim tərəfimdən modelləşdirildiyi, mənim əl işim olduğu deyiləndə çox sevinirəm. Tənqidə gəlincə... bu son layihə ilə bağlı hələ ki, belə bir şey eşitməmişəm. Amma çoxları soruşur ki, niyə mənim geyimlərim "gündəlik geyinilə bilən" deyil. Mənim buna cavabım belədir ki, geyinmək və daşımaq üçün nəzərdə tutulan bu cür paltarları onsuz da çox adam yaradır. Mənim üçün isə kiminsə onu mütləq əyninə geyinib gəzməsi vacib deyil.

Mənim üçün bu, özünüifadədir. Bu o demək deyil ki, kimsə mənim kolleksiyamda olan, azərbaycanlı qadınların toxuduğu xalçanı əyninə geyinib gəzməlidir. Lakin burada bir mesaj var ki, bu, tarixin vacib bir hissəsidir və tezliklə yox ola bilər. Çünki bu gün Gürcüstanda bu cür ornamentlərlə xalça toxuyan cəmi bir neçə azərbaycanlı qadın qalıb. Mən isə Gürcüstanın bu çox dəyərli irsinin yox olmasını istəmirəm.



**Azadlıq Radiosu:** "Vogue" sizi "parlayan ulduz" adlandırdı. Bu, xoşunuza gəldimi?

**Qalib Həsənov:** Təəccübləndim. Bu, bir komplimentdir, lakin, məncə, hələ ki belə demək bir az tezdir.

**Azadlıq Radiosu:** Kolleksiyalarınız arasında sizin üçün favorit olanı varmı?

**Qalib Həsənov:** Bəli, bu, ayaqqabı qaytanları ilə əllə toxunmuş qara rəngli bir libasdır. Bu donu, demək olar ki, bütün müsabiqələrə çıxarıram. Onun yaradılma ilhamı yenə də Kvemo Kartlidə xalça toxuma sənətidir. Bu libasın üzərində xüsusi texnika ilə, sanki bir heykəl üzərində işləyirmiş kimi çalışmışıq... Donun kürək hissəsi açılır və onu xalçaya çevirmək mümkündür.

**Azadlıq Radiosu:** Siz deyirsiniz ki, əgər müəyyən bir "çevrənin" üzvü deyilsinizsə, moda industriyasına daxil olmaq çətindir. Hətta bir müsahibənizdə qeyd etmisiniz: "Mən heç vaxt bu çevrənin hissəsi olmamışam. Mənim üçün ziyafətlərə gedib saxta dostlar qazanmaqdansa, kulis arxasında qalıb istədiyim işi görmək daha xoşdur..."

**Qalib Həsənov:** Bəli, bu elə bir industriyadır ki, orada çox az səmimi insana rast gəlirsən. Bu sahədə istər dizayner olsun, istər jurnalist, bir çox məsələyə çox səthi yanaşırlar. Məncə, elə buna görə də modanı bir növ qeyri-ciddi fəaliyyət sahəsi hesab edirlər... Lakin maraqlı insanlar tapmaq da mümkündür. Müəyyən bir "çevrədə" olmaq isə o deməkdir ki, hamı bir-birinə kömək edir, bir-birini "piar" edir və həmin şəxsin istedadlı olub-olmamasının heç bir əhəmiyyəti qalmır. Belə çevrələrdə demokratiya yoxdur.

**Azadlıq Radiosu:** Gürcüstana gəlib-gedirsinizmi?

**Qalib Həsənov:** Bəli, ildə bir neçə dəfə gedə bilirəm. Və indiyə qədər olduğu kimi, ailəmlə birlikdə vaxt keçirirəm. Onlar da hərdən mənim yanıma gəlirlər.

**Azadlıq Radiosu:** Bu gün Gürcüstanda baş verən hadisələri izləyirsinizmi?

**Qalib Həsənov:** Bəli, təbii ki və mən də orada olanda çox sayda dostumun dayandığı Rustaveli prospektində dayanırdım. Buradan baxanda bütün bunlar daha qorxulu görünür və bu, məni çox narahat edir. Burada, Milanda yaşayan dostlarım da eyni hissləri keçirirlər. Bir növ, artıq öz ölkənə getmək sevinci əvvəlki kimi deyil. Məsələn, elə aeroportda polislərlə münasibəti götürək – onlar da sənə başqa cür baxırlar, sən də onları artıq fərqli qəbul edirsən. Artıq onun səni qoruyacağı hissini daşımırsan... Bu, çox pisdir. Milanda etirazlar keçiriləndə biz həmişə qoşuluruq, amma təəssüf ki, bu hələ heç nəyi dəyişmir...

**Azadlıq Radiosu:** Yaxın planlarınız necədir?

**Qalib Həsənov:** Hazırda "LVMH Prize"ın yarımfinalçısı olaraq Parisdəyəm. Bu ayın sonunda səkkiz finalçını seçməlidirlər və əgər finala keçsəm, bu, çox böyük bir addım olacaq. Avqustda Kopenhagen Moda Həftəsində çıxış edəcəyik, sentyabrda isə Milan Moda Həftəsində daha bir nümayişimiz olacaq.

**Azadlıq Radiosu:** On il sonrakı özünüzü harada, necə təsəvvür edirsiniz?

**Qalib Həsənov:** Dəqiq deyə bilmərəm, amma çox istəyirəm ki, hazırda gördüyüm bu işi sona çatdırım və azərbaycanlı qadınların əli ilə toxunmuş xalça sənətini xilas edək. İstəyirəm ki, bu bacarıq regionda daha çox yayılsın və itib getməsin.

**Azadlıq Radiosu:** Yəni gələcəyiniz yenə də Gürcüstanla bağlıdır?

**Qalib Həsənov:** Elədir. Çünki mən həmişə deyirəm: Milanda yaşamağıma baxmayaraq, mənim ilham mənbəyim heç vaxt İtaliya, Siciliya və ya Renessans dövrü ola bilməz... Təbii ki, müəyyən texnikaları öyrənmək, təcrübə qazanmaq olar, amma əsl mən – Gürcüstan azərbaycanlısıyam və hələ danışılacaq çox hekayəm var.

***Gürcü dilindən tərcümə etdi***
***Aynurə Əliyeva***

# BELƏ-BELƏ İŞLƏR: QALAKTİON TABİDZE



*(əvvəli ötən sayda)*

Qara, açıq palto geyinmişdi və əlində qara portfel tutmuşdu. O, böyük həvəslə əllərimizi sıxdı və bizi salamladı. O, baxışlarını mənə dikdi.

"Bu, cənab Qalaktion, əla hekayələrin müəllifi olan Revaz İnanişvilidir", – dedilər.

"İnanişvili, İnanişvili... Əzizlərim, sizi belə görmək necə də yaxşıdır, bu cür bir yerdə olmağınız necə də xoşdur. Gəlin bu görüşü qeyd edək!"

Tərəddüd etməyə başladıq.

O, əllərimizi sıxdı: "Gedək, gedək!"

Və bizi apardı.

Yadımdadır, o, bizimlə Elmlər Akademiyası, böyük alimlər, oradakı böyük insanlar haqqında danışırdı. Bax, mən də oradan gəlirəm... – Və həm də istehzalı bir təbəssümlə portfelini qarşısına uzatdı: "Uh, orada onların belə portfelləri var!"

Dayandı.

"Burada yaxşıdır, burada bizimkilərdir, gəlin, bura enək" – Və özü bizi aşağıya apardı.

Bizi tanıdılar, dayandılar. İçəri dəvət etdilər. Çoxlu pivə çəllləkləri, bir kiçik masa var idi. Süfrəni açdılar. Əyləşdik. Məşhur qızardılmış ciyər peraşkilərinin böyük topası, tğemali, xardal, göyərti. Şərab – Kaxeti şərabını ortaya qoydular. Qalaktion süzdü, dadına baxdı. Məmnun qaldı.

"Nuş olsun, nuş olsun, əzizlərim!" – Qalaktion bizi qonaqlayırdı.

Sağlıqlar Qalaktionun ətrafında dolanırdı. Qalaktion bizimlə stəkan vurur, axıra kimi boşaldırdı. O, bizdən də stəkanımızı axıra kimi boşaltmağı xahiş edirdi. Biz boşaldırdıq.

Sonra Muxran şeirlər oxudu – "Qatar Peterburqdan gəldi"... Və başqaları da.

Qalaktion deyirdi: "Əladır, möhtəşəmdir"...

Stəkan çevrildi, yerə düşdü, sürüşdü, aşdı. Bitirməyin vaxtı gəldi və raçalı gülümsər ev sahibi içəri girdi. Biz bizimsayağı bir qayda olaraq özümüzü irəli verdik. Qalaktion çevrilmiş əlləri ilə bizi geri çəkdi. Döş cibindən yüz manatlığı çıxartdı, sonra əlli manatlığı da tapdı. Ev sahibinə verdi, həm də əllərini qaldıraraq ona təşəkkür edirdi.

Taksini saxlatdıq.

Yadımdadır: Heykəl kimi hərəkətsiz oturmuş düşüncəli Qalaktion və ona heyran qalmış sürücü.

Sürücü qəfildən gülümsəyərək sadəlövhcəsinə soruşdu: "Sizin arvadınız var, elə deyilmi, cənab Qalaktion? Bu qədər gözəl bir arvad necə tapırsınız?"

"Arvad?" – Qalaktion sürücüyə tərəf döndü, – "Arvad?" – deyə ümidsizliklə təkrarladı. Bir dəfə də kədərlə dedi: "Arvadımı tutdular"...

*(Revaz İnanişvilinin xatirələri. "Qalaktionologiya" X, 2025, Elmi-ədəbi toplusundan).*

* * *

Bir dəfə Qalaktion küçədə belə bir mənzərəyə rast gəlir:

Milis nəfərləri saxlanılan dənizçini şöbəyə aparırlar. Birdən haradansa ikinci dənizçi onların üstünə cumdu, "Qoymaram qardaşımı siz aparasınız", – dostunu aradan çıxarmaq üçün qışqırdı.

"Eşidirsinizmi, nə dedi?! Görürsüzmü, nə etdi?!" – həyəcanlanmış Qalaktion öz yol yoldaşına tərəf döndü, – "Bunu yalnız dənizçi edə bilər! Əminəm ki, onunla yalnız dünən tanış olub!"

Şairin üzü birdən tutqunlaşdı, pıçıltılı səslə dedi: "Mənim isə... Əgər mənim başıma belə bir şey gəlsəydi, bəzi uşaqlıq yazıçı dostum qışqırardı: "Rədd edin, aparın, yolu təmizləyin".

*("Senzurasız Qalaktion" kitabından).*

* * *

Qalaktion və Konstantine Yazıçılar Birliyinin iclasında yan-yana otururlar, digərləri isə rəyasət heyətində bardaş qurublar. Onlardan biri iştirak edən ictimaiyyətə tribunadan ucadan nəsə bir qərar bəyan edir və belə başlayır: "Gürcüstan yazıçıları və şairləri toplaşıb qərara gəliblər ki..."

Bu zaman Qalaktion Konstantineyə tərəf döndü:

"Onlar qərar verəndə sən orada idin?"

"Xeyr, sən?" – Konstantine suala sualla cavab verdi.

"Xeyr, mən də yox idim", – Qalaktion yenə sakitcə ona dedi.

Konstantine əllərini yellədi, onun üçün və Qalaktiona eşitdirmək üçün öz-özünə danışdı:

"Bəs hansı yazıçılar və şairlər qərar veriblər?"

* * *

"Gecələr dəfələrlə oyanıb Qalaktionu gözümün önündə görmüşəm. İndiyə qədər bir hadisəyə görə özümü bağışlaya bilməmişəm:

İrakli Abaşidze, Sergi Çilaya və mən Şalva Dadianini uğramaq üçün tibb kabinetinə girirdik. Qalaktion foyenin bir küncündə oturmuşdu. Görən kimi ayağa qalxıb məni öpmək istədi. Mən onu öpmədim və soyuqqanlılıqla ondan ayrıldım. Qorxurdum ki, o, məni uzun müddət saxlasın.

Ömrümün sonuna qədər buna peşman olacağam ki, uzaqgörənliyim yox idi və həmin gün onunla qalmadım.

Sonra o oldu ki, həmin gün Qalaktion həlak oldu. Bizim şanlı böyük Qalaktion.

Bədbəxtliyimiz ondadır ki, böyük bir insan sağ olanda onu görməzdən gəlirik və o bizi tərk edəndə ağlayırıq.

İndi Qalaktionun yaradıcılığı barədə qəflətən nə deyə bilərəm?

Gürcüstan həmişə o üç böyük gürcünün adı ilə fəxr edəcək. Bunlar Rustaveli, Vaja-Pşavela və Qalaktion Tabidzedir.

Şəxsən mən dünya poeziyasını bu və ya digər şəkildə tanıyıram və nə Gürcüstan, nə də planetimiz Qalaktiondan daha böyük poeziya virtuozunu tapa bilməz.

O, təkcə poeziyanın virtuozu deyil, həm də gürcü dilinin böyük yaradıcısıdır. Gürcü dili onun əlində ərimiş mum kimi itaətkardır... O, heç bir yerdə dilə güc verməz.

O, Tanrılara tay və gurultu axınıdır, o, şan-şöhrət əklili qalacaq, bizə isə göz yaşlarının axını.

*(Konstantine Qamsaxurdianın Qalaktion haqqında xatirələri).*

* * *

Qalaktion Tabidze İosif Stalinin şəxsən ona təqdim etdiyi Lenin ordenini itirir (Lenin ordeni SSRİ dönəmində ali mükafat idi. SSRİ Mərkəzi İcraiyyə Komitəsi 1930-cu il aprelin 6-da təsis etmişdi. Tərkibində platin və qızıl vardır. İndi qara bazarda Lenin yubiley medalı 15-20 lariyə satılırsa, bunun dəyəi 5000 laridir). Bilir ki, bunun sonu güllələnməkdir. Ölmək ölməkdir, xırıldamaq nə deməkdir. Odur ki, birbaşa Beriyanın yanına gedir. Vəziyyəti ona danışır. Beriya xeyli onu süzür. Bilirdi ki, Stalin onu çox sevirdi. Öz Lenin ordenini gətirib ona verir və deyir ki, bir də itirmə.

*(Siyasi xadim, dissident, professor Levan Berzenişvilinin televiziyaya verdiyi müsahibələrinin birindən).*

Onu da qeyd edim ki, bəzi gürcü yazarları onun bu ordeni şəraba verdiyini də deyirlər, halbuki, deyilənə görə, vaxtilə yeni aldığı paltonu və bahalı şarfını da itirib.

* * *

Qalaktion Tabidze şahmatın böyük azarkeşi idi və tez-tez uşaqlarla oynayırdı. Həmin vaxtlar o, rəqibinin fiqurunu oğurlayıb oynamağa davam edirdi... Əgər uşaq oğurlanmış fiquru sezsəydi, Qalaktion sevinərdi, kürəyinə vurar və tərifləyərdi.

* * *

Qalaktion tez-tez piyada gəzir, bəzən isə tramvayla səyahət edirdi. Məlumdur ki, o, xüsusilə uşaqları sevirdi. Qalaktonu Lagidze sularında gördüyünü və başına əli ilə sığal çəkdiyini, yaxud ona "əmican" deyə müraciət etdiyini, əlini yellədiyini daha kim demir. Həyatı boyu o, çoxlarına yaxşı məlum deyildi, halbuki ölümündən sonra hər ikinci şəxs Qalaktionun dostu olduğunu iddia edirdi. Şair şəxsiyyətinin bu gün də aktuallığını qorumağı bacardı. Hətta bu gün də onun haqqında əfsanələr dolaşır və bir-birinə minlərlə şayiə ötürülür. Deyilənə görə, bir dəfə Qalaktion bir mağazaya gedib pivə və araq istəyib, bir az içib, əlini digər yarısı ilə islayıb, saqqalına çəkib demişdi: "Bu şəkildə insanların mənim sərxoş olduğumu düşünməsi daha yaxşıdır". Əslində, içki içmək tələbata çevrilmişdi. Ömrünün son illərində hətta bir stəkanı boşaltmaq belə onun üçün kifayət idi. Zaman-zaman müalicə alır və vəziyyəti də yaxşılaşırdı, amma sonra eyni şey təkrarlanırdı.

*(davamı var)*

*Topladı və gürcü dilindən tərcümə etdi:*
**Mirzə Məmmədoğlu**

İCTİMAİ QƏZET ❀ yeniyolqazeti@gmail.com ❀ "იენი იოლი" საზოგადოებრივი გაზეთი ❀ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

15 MART
2026-Cİ İL
№ 05 (245)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

## GÜRCÜSTANIN VALYUTA EHTİYATLARI 6,65 MİLYARD DOLLARA ÇATIB




Gürcüstan Milli Bankının yaydığı məlumata əsasən, ölkənin beynəlxalq ehtiyatları 2026-cı ilin yanvar ayı ilə müqayisədə fevralda 358,9 milyon ABŞ dolları artaraq rekord həddə çatıb. Məlumatda bildirilib ki, Gürcüstanın ümumi beynəlxalq ehtiyatları təxminən 6,65 milyard dollar təşkil edir.

Tənzimləyici orqanın açıqlamasına görə, valyuta bazarı və makroiqtisadi vəziyyət imkan verdikdə, Milli Bank valyuta ehtiyatlarını artırır. Ümumilikdə, 2025-ci il ərzində xalis alışlar 2432,5 milyon dollar, 2026-cı ilin yanvar ayında isə 86,6 milyon dollar təşkil edib.

Hesabat tarixinə beynəlxalq valyuta ehtiyatlarının ümumi həcmində qızılın payı 18 faiz (1198,4 milyon ABŞ dolları) təşkil edir. Qızılın qiymətindəki dəyişiklik nəticəsində monetar qızılın dəyəri satın alındığı vaxtdan bəri təxminən 698,4 milyon dollar artıb.

Xarici valyutaya çevrilən beynəlxalq ehtiyatlar Milli Bankın ehtiyatlarının əsas hissəsini təşkil edir və 5 milyard dollardır.

Onların strukturuna qiymətli kağızlarda yerləşdirilmiş vəsaitlər (3,8 milyard dollar) və xarici banklarda, eləcə də Beynəlxalq Valyuta Fondunda hesablarda saxlanılan valyuta (1,2 milyard dollar) daxildir.

Bundan əlavə, Milli Bankın ehtiyatlarına Xüsusi Borcalma Hüquqlarında (XBH) yerləşdirilmiş vəsaitlər 472,8 milyon dollar, BVF-dəki ehtiyat mövqeyi isə 30000 dollardır.

Qızıl ehtiyatlarının məbləği 1,2 milyard dollar təşkil edir.

Valyuta ehtiyatlarının strukturunda digər aktivlərin dəyəri 107,4 min dollardır.

## GÜRCÜSTANDA 44 MİNDƏN ÇOX XARİCİ TƏLƏBƏ TƏHSİL ALIR




Gürcüstanda əcnəbi tələbələrin sayı kəskin şəkildə artıb. Gürcüstan Milli Statistika Xidmətinin 2026-cı ilin fevralında dərc etdiyi ən son məlumatlara görə, 2025-2026-cı tədris ilində Gürcüstanın ali təhsil müəssisələrində xarici tələbələrin sayı 44,4 min nəfər təşkil edib.

Milli Statistika Xidməti tərəfindən hazırlanan universitet göstəricilərində oxuduğumuz kimi, bu rəqəm ötən ilin eyni göstəricisi ilə müqayisədə 19,7 faiz çoxdur.

Məlumatda qeyd edilir ki, 2025-2026-cı tədris ilinin əvvəlinə Gürcüstanda 64 ali təhsil müəssisəsi fəaliyyət göstərib ki, onlardan 19-u dövlət, 45-i isə özəldir. Ali təhsil müəssisələrinin 64,1 faizi Tbilisi şəhərində yerləşir.

*Mənbə: edu.aris.ge*

## GÜRCÜSTANDAKI AZƏRBAYCANDİLLİ MƏKTƏBLƏRİN PROBLEMLƏRİ İLƏ BAĞLI GÖRÜŞ KEÇİRİLİB



Martın 14-də Marneulidə yerləşən "Azərbaycan Evi"ndə Gürcüstandakı azərbaycandilli məktəblərin hazırkı durumu, təhsil sahəsində mövcud problemlərə həsr olunmuş tədbir keçirilib.

"Maarif" İctimai Birliyinin təşkil etdiyi tədbirdə müxtəlif bölgələrdəki azərbaycandilli məktəblərin müəllimləri, ziyalılar və ictimaiyyət nümayəndələri iştirak ediblər.

"Maarif" təşkilatının sədri, iqtisadiyyat üzrə fəlsəfə doktoru Aygül İsayeva çıxış edərək Azərbaycan icmasının təhsili, dövlət dili ilə yanaşı, Ana dilini öyrənməsi ilə bağlı mövcud problemlərdən danışıb. Bildirib ki, soydaşlarımızın dövlət dilini öyrənmələri üçün müxtəlif layihələr, proqramlar hazırlanıb. Lakin onların Ana dilinə marağının artdığı nəzərə alınaraq yeni layihələr və proqramlar demək olar ki, yoxdur.

Sonra o, azərbaycandilli məktəblərdə və ümumiyyətlə təhsil sistemində mövcud problemlər, kadr çatışmazlığı, dil baryeri, dərsliklərlə bağlı mövcud olan problemlər barədə məlumat verib.

Tədbirdə çıxış edənlər məktəblərdə dövlət dili ilə yanaşı, Ana dilinin də tədrisinin vacibliyini qeyd ediblər.

Sonda tədbir iştirakçıları adından Gürcüstanın Baş nazirinə, təhsil və elm nazirinə, parlamentin sədrinə və digər əlaqədar təşkilatlara müraciət qəbul olunub.

Müraciətdə ölkənin təhsil sistemində mövcud olan problemlər sadalanıb, etnik azlıqların ana dillərində təhsili ilə bağlı təklifləri qeyd olunub.

## GÜRCÜSTANDA AVTOMOBİLLƏRİN İDXALINA AKSİZ VERGİSİ TƏTBİQ OLUNACAQ



Gürcüstan hökuməti istismar müddəti 6 ildən çox olan nəqliyyat vasitələrinin ölkəyə idxalına qoyulan qadağanı ləğv edib. Bu barədə Gürcüstanın Baş naziri İrakli Kobaxidze hökumətin iclasında bildirib.

Onun sözlərinə görə, bunun əvəzinə, hökumətin qərarı ilə nəqliyyat vasitələrinin idxalına tətbiq olunan aksiz vergisinin məbləği artırılacaq. Belə ki, idxal olunacaq avtomobilin mühərrikinin hər bir kubmetri üçün 4,5 lari aksiz vergisi tutulacaq.

***"İstismar müddəti 6 ildən çox olan nəqliyyat vasitələrinin idxalı ilə bağlı yeni qaydalar tətbiq etdik. Bu qərarla bağlı qanunvericiliyə müəyyən düzəlişlər etmək istəyirik. Xüsusilə, idxalı qadağan etmək əvəzinə, istismar müddəti 6 ildən çox olan nəqliyyat vasitələrinin mühərrikinin gücünün hər bir kubmetri üçün 4,5 lari gömrük rəsmiləşdirmə tarifi tətbiq ediləcək. İdxal qadağası müvafiq artırılmış aksiz rüsumu tarifi ilə əvəz olunacaq. Bu qərar ekologiya, ətraf mühitin qorunması üçün çox vacibdir",*** – deyə Baş nazir bildirib.

Təsisçi:
"Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı"

Redaktor:
Azər MUSAOĞLU
Yayım direktoru:
Hacı BƏKİROĞLU
Qrafik dizayn:
Elsevər ƏHMƏDOV

ÜNVAN: Rustavi şəh., Şartava küç. 12 b.
TEL: (+995) 555 96 18 68
599 54 12 92
İMEYL: yeniyolqazeti@gmail.com

Yazılar yalnız elektron variantda qəbul edilir və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet həlalik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.